

■ Koman Şova

## TƏNHA QADINLAR

Tənha qadınlar
çantalarında diş fırçası,
şəffaf paltarlarında bitməmiş hekayələrin izi -
dünyanı dolaşırlar...

Tənha qadınlar
baxışları ilə ürkək addımlarını sayır,
nəğmə deməkdən sərxoş olur,
alçaqdan uçaraq qanadları yorurlar.
Ənlik-kirşan içində belə
bir bəyaz qarın arzusunda olurlar.

Tənha qadınlar
müasir dünyamızın göz yaşıdırlar.
Limuzinə minərək,
yüzlərlə at gücündə
tənhalıqlarından qaçmağa çalışırlar.

Tənha qadınlar Diana kimi,
uzun barmaqları arasındakı siqareti sümürür,
və uyuduqları şəhərdə yuxuda görürlər
yaddan çıxmış uşaqlıqlarını.

## DÜNYAYA YENİDƏN GƏLMƏK

Ağac yavaş-yavaş qocalır,
amma bir gün
mebel, pəncərə, dirək,
qapı, qaşıq, asılqan olur...
Oyuncaqlarda
dovşan cəldliyini,
ayı yöndəmsizliyini,
tülkü hamarlığını qoruyur.

Körpələrin əlində
yenidən yaşıllaşır ağac,
şirələnir, budaqlanır,
gülür, gizlənir, tapılır.

Oyun da bir azadlıqdır,
yenidən gəlməkdir dünyaya.

## BİR AĞA EHTİYAC

Hər şeyin xislətində nə varsa,
o da baş verir,
və təkrarlanır olanlar
yenə də bir-bir.

Buludların təbiətində - şimşək, yağış,
yollarda - eniş, yoxuş,
gözümüzdə - işıq, yuxu,
sevgimizdə - toy, xəyanət, qorxu.
Mənimsə xislətimdə o qədər şey var...
Nə sahmana sala, nə seçə bilirəm;
nə də "baxın, mən buyam" deyib keçə bilirəm...

Amma hamı necə ağlayırsa,
mən də eləcə ağlayıram
bir ağa ehtiyac duyan zaman.

## OĞLUMU GÖZLƏYƏRKƏN

Mövsümün əvvəlində səni gözləyəcəyəm,
sənə etibar edəcəyəm bu bərəkətli torpağı -
cərgəylə düzülmüş yonatanslar ,
gözəl bir meyvə bağı.

Sən doğulduqdan sonra
üç gün yağış yağmayacaq hələ,
ulu ruhlarımız övladlarımıza keçsin deyə.

Uzaq məsafələrə qaçmaq öyrədəcəm sənə,
kiçik bir adaya qaçanadək
sevgilinlə birlikdə;
orada - qızıl sahillərdə evlilik oynayın ikilikdə.

Sizdən bir qədər uzaq olacaq mənim izlərim,
qarda, şam ağacları arasında unudacaqsan, yə-
qin,
qoyub getdiyim sözləri.

## TANRININ ƏSƏRİ

Göy üzündə bir nöqtəyə dikdin baxışlarını,
O nöqtə Günəşimiz oldu, Tanrım!
Yaratdığın əsərlərin sobası oldun sən,
Və hər şey canlandı, Tanrım,
Torpağa, suya üfürdüyün nəfəsdən.
Sənin cənnətində dolaşanlar
Sözündən çıxdılar bir gün.
Sən də üz döndərdin onlardan
Və acı-acı güldün...
Sonra isə
Öz oğlunu göndərdin insan surətində,
Ki insanlar
Onları necə görmək istədiyini anlasınlar,
Bilsinlər kim olduqlarını.
Onlarsa...
Çarmıxa çəkdilər xilaskarlarını.

## XİYABANDAKI AĞAC...

Mən xiyabandakı ağac kimiyəm -
Qədərincə uzanır qollarım,
Vaxtında kəsilir budaqlarım.
Təmiz hava olmadan da yaşıllaşır
Yarpaqlarım.

Yalnız
Uşaqlar və sevgililər
Çiçəklərimi qoparan zaman
Sevinə bilirəm mən.
Bir də,
Nəzarətçilərdən qorxmadan
Meyvələrim dərilərkən.

## ETİRAF

Orada nə təpə vardı, nə vadi, nə də düzəngah.
İki sahil arası uçurumdu elə bil...
Yol arzu deməkmiş?!
Ayaqlarım altda hiss etmirdim yolları.
Addımladıqca
sanki mənim ayaqlarım deyildi yeriyən,
sanki addım deyildi bu atdıqlarım.
Nə aclığı, nə soyuğu, nə istini hiss edirdim.
Nə ağır, nə də yüngül deyildim -
Olması gərəkən biri idim sadəcə...

Surətimi də xatırlamırdım daha,
amma bunun mən olduğunu bilirdim.
özümə kənardan baxırdım,
gözəgörünməz adam kimi
mən də görünmürdüm gözə.
Olmalı olan biri idim sadəcə...

## AXIR ZAMANDAN SONRA

Minlərlə ömür əvvəl
baş götürüb getdiyimdə
ev-eşiyim külə dönmüş,
ağaclarım yıxılmış,
uşaqlıqda - valideynlərimlə bir-birimizi
sözsüz də anladığımız zamanlarda
arxasında oturub söhbət etdiyimiz masa dağıl-
mışdı.
taxma qanadlarla uçduğumuz vaxtlar
necə də xoşbəxt olmuşuq...

Lakin soyuqlar gəlib
öz boz üzünü göstərdi,
otları yaladı,
atları, mal-qaranı,
və quşları uddu.
İşıq titrədi qaranlığın önündə.
Ay da donub daşa döndü.

Gözlərimdən boz yağışlar yağdı,
boz rəngli toza büründü torpaq.
Valideynlərimi, həyat yoldaşımı
boz kraterdə dəfn etdim,
ağırlaşmış baxışlarımı ayırdım
bozumtul kütlələrdən və bozumtul təpələrdən.
Boz qanadlarımı açıb
atıldım
torpağın sularına.

## YUXU

Yuxuda gördüm ki, bir körpə
bəli, bəli - bir körpə
həyat dərsi keçir mənə.
"Bəlkə, bu uşaq - bir möcüzədir?" -
deyə düşündüm.
O, ədalətdən danışır,
müdrikcə məsləhətlər verirdi.
Söylədikləri kəhanətdi sanki.
Budur, o, əlimdən tutur
və biz
hava qatarına otururuq:
Mən və bu körpə...
o üzdə enirik qatardan -
kimsəsizlikdir.

## TƏHDİD

Biriləri nəfəs aldığım havanı
Qarışdırmaq istəyir.
biriləri başımın üstündə
zəhərli buludları toqquşdurmaq istəyir.

Bütün fəsillərimi
yaşıllıqlarla birgə udmaq istəyir.
Hələ də
bir müqəddəs bazar günü
köklərimi qurutmaqla
qorxutmaq istəyir.

Biriləri məni təhdid etməkdən
boğulacaq bir gün...

## İNDİ

İndi!
nə sabah,
nə başqa zaman,
nə də başqa fəsildə.

Elə indi görülməlidi
bütün lazım olan işlər.
Sabah,
başqa zaman,
başqa fəsildə isə
yerindəcə,
elə oradaca edərsən hər nə var.

Söylə - danışacaqlarını,
uçurt, dağıt - dağıdacaqlarını,
ucaldacaqlarını qaldır başa,
və nə qədər ki sağsan - yaşa!

Bundan sonrakı günlərdə də,
və bütün ömrün boyu, beləcə,
yaşa - yaşaya bildiyin müddətdə!
Sonra nə qalır:
heç nə edə bilməmək
və ölüm qoxusu.

## O - SƏN OLA BİLƏRSƏN!

İrəlilə, yorğunluq da, üzgünlük də keçəcək.
Çoxlarından seçilməmək qorxusu da bitəcək.
Ümidsizlik, bu tərəddüd, bu yanğı
hər adamın canında var, biləsən.
Yürü, durma, irəli get,
O - sən ola bilərsən...

Durma!
Yoxsa uduzarsan. Bircə an da dayanma!
Güclü, soyuq yağışlarda üşüsən də, usanma.
Baxma yolun darlığına,
Sürüşsən də, ayağa qalx yenə sən!
Durma!
Hər şey öz əlində!
O - sən ola bilərsən!

## QAR VƏ CANAVAR GÖZLƏRİ

Qışdan və bu meşənin
qurdlarından qorxma.

Qış - qədim, şəffaf zamanıdır dünyanın,
qurdlarsa o zamanın itləridir.
Heç birindən qorxma!

Qışdan və qurdların arasından
birlikdə keçib getməliyik,
çünki sənə vəd etdiklərim
bundan sonradır yalnız.

Qar uçqunları olarsa yolumuzda,
bunu şərdən bilmə.
Olan olmalıdır,
əlini ver mənə.

Uzaq və uca təpələr, dağlar
mənim dostlarımdır.
Şam ağacları ilə
bir ata kimi söhbət edə-edə
yol gedəcəyik gecələr.
Sahildə üç şam var,
o üzə keçdikmi - çatmışıq.

Qaranlıqdan qorxma, əzizim.
Bəyaz qar və canavar gözləri
yoldaşlıq edəcəklər bizə.

*Davamı səhifə 14-də*